**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# ƏMƏKDAŞLARIN MOTİVASİYASI HAQQINDA PROSEDUR

**Mingəçevir - 2023**

*Təsdiq edirəm:*

***Mingəçevir Turizm Kollecinin***

***direktoru _______ Kamal Əhmədov***

***14 sentyabr 2023-cü il***

## I. Ümumi müddəalar

1.1. Mingəçevir Turizm Kolleci Publik Hüquqi Şəxsində Əməkdaşların Motivasiyası haqqında Prosedur (bundan sonra - ƏMP) işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədi ilə qəbul edilir;

1.2. Motivasiya – çalışqanlıq, təşəbbüs və işləmək arzusunu stimullaşdıran daxili dəyərlərə və işçilərin ehtiyaclarına yönəlmiş bir sıra tədbirlər toplusudur. Motivasiyanın 2 növü var:

- Maddi;
- Qeyri-maddi.

1.3. Maddi motivasiyaya pul və xidmət şəklində ödənişlər aiddir. Bu metod bir işçi və ya kollektiv üçün tətbiq edilə bilər. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 157.2 maddəsinə görə əmək müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasında işçilərin maddi marağını gücləndirmək məqsədi ilə mükafatlandırma, o cümlədən il ərzində işin yekunlarına görə mükafat və maddi həvəsləndirmənin digər formaları tətbiq edilə bilər. Bu halda, müəssisədə təyin edilən mükafatlandırma sistemi müəyyən edilmiş göstəricilər və şərtlər əsasında müəyyən şəxslərə mükafatların verilməsini nəzərdə tutmalıdır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 157.6 maddəsinə əsasən mükafat, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə işçinin maddi marağının artırılması məqsədi ilə əmək haqqı sistemində nəzərdə tutulan qaydada və formada verilən həvəsləndirici pul vəsaitidir. Birdəfəlik mükafatlar işəgötürənin qərarı əsasında təyin edilir və verilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 185-ci maddəsinə görə, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərə işəgötürən tərəfindən pul və ya qiymətli əşyalar hədiyyə edilə bilər. Bundan başqa, işəgötürən bayramlarda, işçilərin ad günlərində və s. hallarda işçilərə pul şəklində mükafatlar və ya qiymətli əşyalar hədiyyə edə bilər.

1.4. Qeyri-maddi motivasiya isə işçilərin özlərini dəyərli hiss etməsini təmin edən, ruhlandıran bir metoddur. Bu metod bir işçi və ya kollektiv üçün tətbiq edilə bilər. Qeyri-maddi motivasiyaya karyera yüksəlişi imkanının olması, kollektiv daxilində xoş atmosferin təmin edilməsi, mədəni-kütləvi tədbirlərin və korporativ gəzintilərin təşkil edilməsi, işçilərə əmək fəaliyyətindəki fəallığa görə təşəkkür elan olunması və fəxri

fərmanların təqdim olunması, müəssisə hesabına təlimlərdə pulsuz iştirak etmək imkanları və s. daxildir.

## II. Məqsəd.

2.1. İşçilərin öz funksiyasını yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi və əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi üçün onların stimullaşdırılması;

2.2. Əməkdaşların fərdi və kollektiv töhfəsini nəzərə almaqla maddi və mənəvi həvəsləndirilməsi.

## III. Öhdəliklər

Mingəçevir Turizm Kollecinin əməkdaşlarının mükafatlandırılması prosesi aşağıdakı qaydalar əsasında həyata keçirilir:

3.1. Kollecin inzibati-idarə və ştatda çalışan akademik heyəti il ərzində 4 bayram münasibətilə pul mükafatı ilə mükafatlandırılır:

- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü;
- Novruz bayramı;
- Qurban bayramı;
- 5 oktyabr Beynəlxalq Müəllimlər Günü;

3.2. Öz vəzifə funksiyalarını yüksək peşəkarlıqla yerinə yetirən və eyni zamanda öz funksiyalarından əlavə tapşırılmış işləri həyata keçirən əməkdaşlar HİK-in razılığı ilə pul mükafatı ilə mükafatlandırıla bilər;

3.3. İldə 1 dəfə qış və yaz imtahan sessiyalarının sonunda müvafiq tədris işləri üzrə direktor müavininin təqdimatı əsasında imtahanların keçirilməsində fəallıq göstərən əməkdaşlar pul mükafatı ilə mükafatlandırıla bilər;

3.4. İntizam tənbehi (töhmət, şiddətli töhmət) verilmiş əməkdaşlara 6 (altı) ay müddətinə pul mükafatı verilməsi şamil edilmir;

3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 may 1994-cü il tarixli, 175 saylı Qərarını və Kollektiv Müqaviləni əsas tutaraq, Mingəçevir Turizm Kollecində çalışan işçilərdən əlilliyi olan əməkdaşların aylıq əmək haqlarına aşağıdakı qaydada əlavələr tətbiq olunur:

- III qrup - 15%;
- II qrup – 20%;
- I qrup və ya müharibə əlilinə - 25%.

3.6. Uşaqları birinci sinifə gedən və ya uşaqları məzun olduqda valideynlərdən birinə bir gün haqqı ödənilən istirahət günü verilə bilər;

3.7. İşçinin toyu olduqda 5 gün, övladı anadan olduqda 3 gün və ya yaxın qohumu vəfat etdikdə müraciəti əsasında işçiyə 5 gün ödənişli məzuniyyət verilə bilər.

3.8. Kollecdə 30 il fasiləsiz iş stajı olan işçilərə 3 gün əlavə haqqı ödənilən məzuniyyət verilə bilər.

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının “14” sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).